1_Layout 1 13.10.2017 16:00 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 20 (511)

16 oktyabr 2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI KEÇİRİLİB

***Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.***

**AZƏRTAC** xəbər verir ki, bu ilin doqquz ayında ölkəmizin uğurla və hərtərəfli inkişaf etdiyini, bütün sahələrdə dinamik inkişafın təmin edildiyini deyən Prezident İlham Əliyev iqtisadi göstəricilərimizin müsbət olduğunu vurğuladı. Dövlətimizin başçısı ilin doqquz ayında qeyri-neft iqtisadiyyatının 2,5 faiz artdığını qeyd edərək, bunun son illərdə aparılan siyasətin nəticəsi olduğunu bildirdi. Qeyd etdi ki, bu dövrdə qeyri-neft sektorunun sənaye hissəsində artım 3,1 faiz, kənd təsərrüfatında 2,8 faiz təşkil edib, xarici ticarət dövriyyəsi 7 faiz artıb. Prezident İlham Əliyev vurğuladı ki, doqquz ayda Azərbaycanın valyuta ehtiyatları 42 milyard dollar səviyyəsində olub. "Biz uzunmüddətli dayanıqlı inkişaf barədə düşünürük", - deyən dövlətimizin başçısı iqtisadi imkanlarımızın müstəqilliyimizin əsas şərtlərindən biri olduğunu bildirdi. Vurğuladı ki, 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımız doqquz ayın ən uğurlu məsələlərindən biridir.

Prezident İlham Əliyev bu dövrdə yeni iş yerlərinin yaradılması prosesinin uğurla getdiyini, doqquz ayda 226 min yeni iş yerinin yaradıldığını bildirdi. Ötən dövrdə ölkədə əsas infrastruktur, o cümlədən yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələrin uğurla icra olunduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, bu cür tədbirlərin həyata keçirilməsi regionların uğurlu inkişafına və ölkəmizin ümumi iqtisadi tərəqqisinə təkan verir. Bu ilin ötən dövründə yeni məktəblər, tibb ocaqları tikilib və əsaslı təmir edilib. İlin əvvəlindən



məcburi köçkünlərin sosial məsələlərinin həlli, onların mənzillə təmin edilmələri məsələsi də diqqət mərkəzində olub.

Cocuq Mərcanlının bərpasını və kənddə sosial infrastrukturun yaradılmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı 2017-ci ildə də məcburi köçkünlərin yeni mənzillərlə təmin ediləcəyini və bu layihənin gələn il də davam etdiriləcəyini bildirdi, indiyədək 250 mindən çox soydaşımızın dövlət tərəfindən mənzillərlə təmin olunduğunu qeyd etdi.

Prezident İlham Əliyev bildirdi ki, bu ilin doqquz ayında ölkəmizdə idman sahəsində böyük uğurlar qazanılıb, İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə təşkil olunub.

Dövlətimizin başçısı 2017-ci ilin doqquz ayında beynəlxalq arenada mövqelərimizin möhkəmləndiyini, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanındığını vurğuladı, bu dövrdə 14 dəfə xarici ölkələrə səfər etdiyini, 10-dan çox dövlət və hökumət başçısının isə ölkəmizə gəldiyini dedi və hər bir səfərin ölkəmiz üçün faydalı olduğunu vurğuladı.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bu məsələdə mövqeyimizin dəyişməz qaldığını, ərazi bütövlüyümüzün danışıqlar predmeti olmadığını bildirdi. Qeyd etdi ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Dövlətimizin başçısı onu da vurğuladı ki, Ermənistan danışıqları pozmağa çalışsa da, buna nail ola bilmədi.

Prezident İlham Əliyev dedi ki, bu ilin doqquz ayında ölkəmizin neft-qaz sektorunda əlamətdar hadisələr baş verib. Ötən ay "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Saziş imzalanıb, "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı işlər də uğurla gedir. Əsas məqsədin qeyri-neft sektorunun inkişafı olduğunu deyən dövlətimizin başçısı neftdən gələn gəlirlərin insan kapitalının inkişafına yönəldiyini diqqətə çatdırdı.

Yaxın vaxtlarda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışının olacağını deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın iştirak etdiyi və bir çox hallarda təşəbbüskarı olduğu layihələr qlobal xarakter daşıyır və dünyada ölkəmizin mövqeyinin daha da güclənməsinə töhfə verir.

Dövlətimizin başçısı diqqətə çatdırdı ki, bu ilin doqquz ayında da ölkədə iqtisadi islahatlarla bağlı ciddi addımlar atılıb, sahibkarlara hərtərəfli şərait yaradılıb, Strateji Yol xəritələrinin inkişafı təmin edilib, investisiya təşviqi mexanizmi işə düşüb. İndiyədək 200-dən artıq investisiya təşviqi sənədi verilib ki, bunun da nəticəsində Azərbaycana özəl sektor tərəfindən 1,7 milyard manat sərmayə cəlb edilib. Bununla yanaşı, ölkədə ixracın təşviqi mexanizmi işə düşüb.

Bu ilin Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacağını deyən Prezident İlham Əliyev bildirdi ki, 140 ölkə arasında rəqabətliliyi əks etdirən Davos Ümumdünya İqtisadi Forumunun hesabatına görə, ölkəmiz 37-ci pillədən 35-ə qalxıb və MDB məkanında liderliyini qoruyur.



Sonra təhsil naziri Mikayıl Cabbarov, "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov, Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli bu ilin doqquz ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzələrlə çıxış etdilər.

Müşavirəyə yekun vuran Respublika Prezidenti İlham Əliyev ilin sonunadək dövlət investisiya proqramında nəzərdə tutulmuş məsələlərin həllini tapacağını dedi. Prezident İlham Əliyev gələn ilin dövlət investisiya proqramı ilə bağlı təkliflər gəldiyini vurğuladı, ilin sonunadək gələn il üçün dövlət investisiya proqramının qəbul edilməsinin mümkünlüyünü bildirdi.

Ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə, iş adamlarına verilən güzəştli kreditlərə toxunan dövlətimizin başçısı bildirdi ki, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu ilin sonunadək kreditləşməni təmin etməlidir.

Bu ilin doqquz ayında ölkədə yol infrastrukturu ilə bağlı çox mühüm layihələrin icra edildiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, bu layihələr bölgələrimizin turizm sektorunun inkişafına təkan verəcək. Gələn il daha çox kənd yolu inşa ediləcək. Bundan əlavə, bu il 150 min hektar torpağa suyun verilməsi nəzərdə tutulub. Gələn il 100 min hektara su verilməlidir ki, bu da kənd təsərrüfatının inkişafını təmin edəcək.

Prezident İlham Əliyev fermerlərin kənd təsərrüfatı texnikaları ilə təmin edilməsi istiqamətində də mühüm addımların atıldığını, bölgələrdə logistik mərkəzlərin tikildiyini, hazırda 400 hektardan çox sahədə yeni müasir istixana komplekslərinin salındığını bildirdi.

Bölgələrdə müasir sənaye zonalarının yaradıldığını da deyən dövlətimizin başçısı ölkəmizin ixrac potensialını təbliğ etmək üçün sərgilərdə, beynəlxalq tədbirlərdə fəal iştirak etməyin əhəmiyyətinə toxundu.

Prezident tikinti sektorunda canlanmanın olduğunu, hazırda paytaxtımızda 95 yaşayış binasının tikildiyini, yararsız vəziyyətdə olan binaların yerində müasir yaşayış komplekslərinin inşa olunduğunu dedi.

"ASAN xidmət" mərkəzlərinin yaradılması ilə bağlı işlərin uğurla getdiyini deyən Prezident İlham Əliyev "ABAD mərkəz"lərin yaradılmasının əhəmiyyətinə də toxundu, turizm sahəsində sürətli inkişafın olduğunu bildirdi.

Azərbaycanda ictimai-siyasi vəziyyətin və iqtisadi inkişafın bir çox ölkələr üçün nümunə olduğunu deyən dövlətimizin başçısı bu ilin sonunadək və gələcək illərdə də ölkəmizin uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

## BELARUS DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ NÜMAYƏNDƏ HEYƏTİ DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİ VƏ HƏRBİ HİSSƏLƏRDƏ OLUB



***Oktyabr ayının 9-dan 13-dək Belarus Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanının arxa cəbhə üzrə müavini-arxa cəbhə rəisi polkovnik Tatarko İqor Fedoroviçin rəhbərliyi ilə Belarus Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 3 nəfərdən ibarət nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olub.***

Səfər çərçivəsində qonaqlar ilk olaraq Şəhidlər Xiyabanını ziyarət edib, torpaqlarımızın azadlığı və ölkəmizin suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini dərin ehtiramla anaraq, məzarları üzərinə və "Əbədi məşəl" abidəsinin önünə çiçəklər qoyublar.

Şəhidlər Xiyabanında Daxili Qoşunların Qarabağ müharibəsində şəhid olan hərbi qulluqçularının dəfn olunduğu "Qardaşlıq məzarı" da ziyarət olunub.

Daxili Qoşunların Baş İdarəsində belaruslu qonaqları Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Şirin Xəlilov qəbul edib.

Səmimiyyət və qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşün ölkələrin Daxili Qoşunları arasında əlaqələrin daha da inkişafına təkan verəcəyi bildirilib.

Daha sonra polkovnik T.İ.Fedoroviçin rəhbərlik etdiyi nümayəndə heyəti Daxili Qoşunlar Komandanının müavini-Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədovla görüşüblər.

Görüşdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Belarus Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasındakı hərbi əməkdaşlıq və dostluq münasibətlərinin mövcudluğundan məmnunluq ifadə olunub.

Polkovnik Tatarko İqor Fedoroviç səmimi və qonaqpərvər qəbul üçün dərin təşəkkürünü bildirərək, ölkəmizə rəsmi səfərinin əməkdaşlığın bundan sonra da uğurlu inkişafına dəstək verəcəyini və hər iki dövlətin müvafiq qurumları arasında münasibətlərin daha da genişləndirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Tərəflər arasında hər iki qurumun əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri də müzakirə olunub. Görüşdə Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, təlim-tədrisin, təchizatın vəziyyəti və beynəlxalq əlaqələri barədə genişməzmunlu brifinq nümayiş etdirilib.

Həmin gün səfər proqramına uyğun olaraq, nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində tədrisin təşkili və maddi-texniki tədris bazası, kursantlar üçün yaradılmış hərtərəfli şəraitlə maraqlanıblar.



Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov qonaqları səmimi salamlayaraq, onları Daxili Qoşunların Ali Hərbi Məktəbində qəbul etməkdən məmnunluq hissi duyduğunu bildirib. Daxili Qoşunların beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin günü-gündən inkişaf etdiyini diqqətə çatdıran məktəb rəisi keçirilən görüşün buna bariz nümunə olduğunu söyləyib.

Qeyd olunub ki, xüsusilə dövlət müstəqilliyi qazanıldıqdan sonra ölkəmizdə ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların formalaşmasına, onun ən müasir tələblərə cavab verən silahlı birləşməyə çevrilməsinə, şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə və maddi-texniki təchizatının daha da yaxşılaşdırılmasına xüsusi önəm verilir.

Belaruslu qonaqlar Daxili Qoşunların Ali Hərbi Məktəbində tədris korpuslarına, kursant yataqxanasına baş çəkib, yaradılmış şəraitlə maraqlanıblar.

Daha sonra Belarus Respublikasının Daxili Qoşunlarının zabitləri 99713, 17077, 64412, oktyabr ayının 11-də isə 16073 saylı hərbi hissədə müvafiq xidmət sahələri ilə də tanış olublar.

Qeyd edək ki, dördgünlük səfər çərçivəsində belaruslu nümayəndə heyəti Azərbaycanın zəngin mədəni irsini əks etdirən bir sıra tarixi abidələrlə tanış olub və paytaxtımızı gəziblər.

**Mətbuat xidməti**

2_Layout 1 13.10.2017 15:55 Page 1



# AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ ƏBƏDİDİR, DÖNMƏZDİR...

***26 il öncə Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar bir həftə sonra verildi. Beləliklə, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi.***




Ötən əsrin sonlarında Sovetlər Birliyi ideoloji böhran həddinə çatdı. 90-cı illərin əvvəllərində SSRİ-nin demək olar ki, əksər regionlarında millətlərin və xalqların azadlıq hərəkatı başladı. İmperiyanın siyasi beyin mərkəzi Sovet hərb maşınının köməyi ilə müxtəlif bölgələrdə, o cümlədən Bakıda qanlı qırğınlar törətməklə SSRİ-ni dağılmaqdan qorumağa çalışırdı. Lakin bu mümkün olmadı. 1991-ci ilin avqustunda ittifaqın ləğv edilməsi haqqında qərar verildi və Sovetlər Birliyi dünya xəritəsindən silindi. SSRİ-yə daxil olan digər müttəfiq respublikalar kimi həmin ilin oktyabrın 18-də Azərbaycan Ali Soveti də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi və suveren dövlət kimi Azərbaycan Respublikası dünya birliyinin üzvü oldu.

Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Milli Lider Heydər Əliyevin qayıdışından sonra əldə etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi sabitlik gətirdi. Məhz Milli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Respublikamızı Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən Milli Lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə dövlət quruculuğu işlərinə başladı və qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi.

Təbii ki, əsl müstəqillik öz sərvətlərinin tam sahibi olmaqdır. 1994-cü ilin 20 sentyabrında Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə iştirak edərək, Avropa və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqillik, Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, müstəqilliyin əbədiliyi və dönməzliyi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olmuşdur. Məhz Heydər Əliyev faktoru yeni və qlobal dünyada ölkəmizin yerini, güclü mövqeyini, artan nüfuzunu müəyyənləşdirdi. Azərbaycanın dünyaya, dünyanın Azərbaycana gərəkli olduğunu sübut etdi.

# QIŞ MÖVSÜMÜNƏ HAZIRLIQ TƏDBİRLƏRİ DAVAM ETMƏKDƏDİR

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə qış mövsümünə hazırlıq işləri artıq yekunlaşmaq üzrədir. Bu barədə DQBİ-nin Maddi-texniki təminat İdarəsində Mənzil-istismar xidmətinin rəisi polkovnik-leytenant Vidadi Məmiyev ətraflı məlumat verdi. Qeyd etdi ki, qoşunların hərbi hissələrində kazarma-yaşayış fondunun, kommunal qurğuların qış mövsümündə normal istismarının təmin edilməsi və qışa hazırlıq işlərinin planlı şəkildə aparılması məqsədilə Daxili Qoşunlar Komandanının müvafiq əmri hazırlanıb.

Əmrdən irəli gələn tələblərin icrası ilə bağlı hərbi hissələrdə görüləcək işlər barədə cari ilin may ayının 25-də hərbi hissələrin mənzil-istismar xidmətlərinin rəisləri ilə keçirilən metodiki-təlim toplantısında və Daxili Qoşunlar Komandanının müavini - Maddi-texniki təminat İdarəsi rəisinin iştirakı ilə keçirilən xidməti müşavirələrdə ətraflı müzakirələr aparılaraq, tapşırıqlar verilib. Bina və qurğuların yanğından mühafizəsi və elektrik xətlərinin izolyasiyası yoxlanılıb, elektrik təsərrüfatı işinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2005-ci il tarixli, 18 nömrəli Qərarı ilə təsdiq olunmuş "Elektrik enerjisinin istifadə Qaydaları"nın tələblərinə uyğun təşkil edilməsi nəzarətdə saxlanılıb.

Xidmət rəisi əlavə etdi ki, hazırda hərbi hissələrimizdə kazarma-yaşayış fondunun, kommunal qurğuların qış mövsümündə normal istismarının təmin edilməsi məqsədilə bir çox işlər uğurla həyata keçirilib.

Daxili Qoşunların Baş İdarəsinin inzibati binasında, ərazisində və hərbi hissələrdə müvafiq təmir və təmizlik işləri həyata keçirilib. sının yeməkbişirmə sexində kosmetik təmir işləri aparılıb, döşəmə Baş İdarənin, Ali Hərbi Məktəbin və hərbi hissələrin xidməti otaqlarında, kazarmalarında 630 ədəd nasaz istilik radiatoru dəyişdirilib.

Qış mövsümünə hazırlıqla bağlı görülən işləri sistematik şəkildə








sadalayan polkovnik-leytenant V.Məmiyev cari ildə qazanxana operatorlarının komplektləşdirilməsi üzrə tədbirlərin görüldüyünü, onların peşəkarlığının artırılması məqsədilə "Azneftkimyamaş" ASC-nin Təlim Mərkəzində "Aşağı təzyiqli qazanxana operatoru" ixtisası üzrə kursların təşkil edildiyini və 77 nəfər işçinin kursu bitirərək, sertifikatlarla təmin olunmasını da nəzərə çatdırdı.

Qış mövsümünə hazırlıqdan danışarkən qarşıda duran ən ümdə məsələlərdən biri də Daxili Qoşunların balansında olan nəqliyyat vasitələrinin və helikopterlərin hava şəraitinə uyğun hazırlığıdır. Təbii ki, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında, verilən tapşırıqların tez bir zamanda yerinə yetirilməsində nəqliyyat vasitələrinin rolu ölçüyəgəlməzdir. Məhz buna görə də qoşunlar üzrə təsdiq olunmuş texniki xidmət cədvəlinə əsasən, nəqliyyat vasitələrinin qış mövsümündə istismarının təhlükəsizliyini təmin etmək məqsədilə hissə, mexanizm və cihazların sazlığının bir daha yoxlanılması, maşınların aqreqat və mexanizmlərində xüsusi mövsümi mayelərin və yağlama materiallarının dəyişdirilməsi uğurla həyata keçirilib.

Bütün görülən işlərlə yanaşı, şəxsi heyətin tibbi təminatı və sağlamlığının qorunmasının əsas faktorlardan biri olduğunu söyləyən polkovnik-leytenant V.Məmiyev rəhbərliyin də bu sahəyə həssas yanaşdığını vurğuladı. Bu ərəfədə Tibb xidmətinin fəaliyyətinin əsas istiqamətinin havadamcı infeksiyaların əmələ gəlməsinin və yayılmasının qarşısının alınmasına, qospitalizasiyasına, müalicəsinə, həmçinin, digər əks-epidemik tədbirlərin həyata keçirilməsinə yönəldildiyini bildirdi. Belə ki, xəstələnmələrin baş verəcəyi hallar üçün peyvənd materiallarının, kimyəviterapevtik preparatların və dezinfeksiyaedici maddələrin ehtiyatı yaradılıb.

Bir sözlə, qışa hazırlıq tədbirlərinin tam başa çatdırılması, görülən işlərin keyfiyyətlə yerinə yetirilməsi, qış mövsümündə şəxsi heyətin lazımi maddi vəsaitlərlə təminatı, avadanlıqların və nəqliyyat vasitələrinin təhlükəsiz istismarı Daxili Qoşunların Baş İdarəsinin müvafiq şöbə və xidmətləri tərəfindən nəzarətə götürülüb.

**leytenant N.Ağayeva**

# XƏSTƏLƏRİN MÜALİCƏSİ ZAMANI MÜASİR TİBBİ AVADANLIQLARDAN İSTİFADƏ OLUNUR

***Daxili Qoşunların 12576 saylı hərbi hissəsinin-hərbi qospitalının seçilən şöbələrindən biri Fizioterapiya-tibbi bərpa şöbəsidir. Şöbədə görülən işlər, xəstələrin müalicəsi haqqında məlumat almaq məqsədilə həkim-fizioterapevt leytenant Nailə Mirzəyeva ilə söhbət etdim.***

İlk olaraq onu qeyd edim ki, leytenant N.Mirzəyeva 1987-ci il mart ayının 13-də Bakı şəhərində doğulub. 138 saylı tam orta məktəbdə təhsil alıb. 2005-2011-ci illər ərzində Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsində təhsilini davam etdirib. 2012-ci ildən etibarən Daxili Qoşunların sıralarında xidmət edir. İlk olaraq Daxili Qoşunların 12576 saylı hərbi hissəsi-hərbi qospitalının Terapiya şöbəsində həkim-baş ordinator, 2015-ci ildən isə Fizioterapiya-tibbi bərpa şöbəsində həkim-fizioterapevt vəzifəsində xidmətini davam etdirir. Hərbi hissə komandanlığı tərəfindən yüksək nizam-intizamlı hərbi qulluqçu, savadlı həkim-mütəxəssis kimi xarakterizə olunur. Dəfələrlə həm Daxili Qoşunlar Komandanlığı, həm də hissə komandanlığı tərəfindən mükafatlandırılıb.



Leytenant N.Mirzəyeva ilə söhbət zamanı bildirdi ki, yunan dilindən tərcümədə "təbiətin gücü ilə müalicə" anlamını verən fizioterapiya tibbin müalicə vasitələrindən biridir. Bu müalicə vasitələri şüalar və insan orqanizminə təbii faktorların süni yollarla tətbiq edilməsi ilə aparılır. Həkim fizioterapiya sahəsində istifadə olunan metodlar haqqında da məlumat verdi: "Xəstəliklərin su ilə, o cümlədən mineral sularla, elektriklə, elektromaqnitlə müalicəsi həyata keçirilir. Bundan əlavə, massaj, müalicəvi bədən tərbiyəsi və digər üsullardan istifadə olunur. Bir zamanlar fizioterapiya elminə bir o qədər də önəm verilmirdi. Lakin hazırda demək olar ki, dünyanın bütün inkişaf etmiş ölkələrində xəstələrin müalicəsi zamanı farmokoloji üsullarla (xəstələrin dərman preparatları ilə müalicəsi) yanaşı, fizioterapiya prosedurlarından da geniş istifadə olunur. Belə ki, şöbədə xəstələrin müalicəsi zamanı dünyanın müxtəlif inkişaf etmiş ölkələrindən gətirilən müasir tibbi avadanlıqlardan istifadə olunur. Xüsusilə, cərrahiyyə əməliyyatlarından və müxtəlif travmatoloji xəstəliklərdən sonra xəstələrin sağlamlığının bərpa edilməsində fizioterapiya prosedurlarının rolu böyükdür".



Həkim-fizioterapevt qeyd edir ki, fizioloji müalicənin farmokoloji müalicədən bir sıra üstünlükləri də var: "Bu prosedurlar xəstələrin müalicəsi zamanı daha yüksək nəticələr əldə etməyə imkan verir. Bəzi hallarda xəstələrin orqanizmində, mədə-bağırsaq sistemində problemlər olduğundan, onlar dərman preparatlarını qəbul edə bilmirlər. Bu zaman fizioterapiya prosedurları onların köməyinə gəlir. Bir sıra xəstəliklərin müalicəsində isə dərman preparatlarının qiymətləri baha olduğundan, fizioloji müalicə üsulundan istifadə olunur və xəstələrin sağlamlıqlarının bərpasında yüksək nəticələr əldə olunur".

Leytenant N.Mirzəyeva söylədi ki, bu tibbi avadanlıqlardan daha çox oynaq xəstəliklərində, birləşdirici toxuma xəstəliklərində, mədə-bağırsaq, tənəffüs sistemi xəstəliklərində, həmçinin, kosmetoloji müalicələr zamanı istifadə olunur: "Hərəkət məhdudluğu olan xəstələrlə aparılan müalicəvi prosedurlardan sonra istər yuxarı, istərsə də aşağı ətrafların fəaliyyətində irəliləyişlər əldə olunur, xəstənin əmək qabiliyyəti bərpa edilir. Bəzi hallarda fizioterapiya prosedurları farmokoloji müalicə ilə paralel olaraq aparılır. Bəzi hallarda isə xəstə tam olaraq farmokoloji müalicə kursunu başa çatdırır, daha sonra bu prosedurlar həyata keçirilir".

Aparılan prosedurların müddəti haqqında məlumat verən həkim onu da vurğuladı ki, xəstəliyin növündən, inkişaf sürətindən və xəstənin vəziyyətindən asılı olaraq, bu prosedurların sayı 10-12 arası olur. Bəzi prosedurlar gündəlik, bəziləri isə günaşırı həyata keçirilir. Əlbəttə ki, bu zaman xəstənin həddindən artıq yüklənməməsi diqqət mərkəzində saxlanılır.

Söhbət zamanı o da məlum oldu ki, şöbə öz işini qospitalın digər şöbələri ilə qarşılıqlı şəkildə təşkil edir. Belə ki, cərrahiyyə, travmatologiya və digər şöbələrdən xəstələr daxil olan zaman ilk olaraq onların müayinəsi aparılır, xəstənin sağlamlıq vəziyyətinə baxılır, digər şöbələrin həkimləri ilə birlikdə müzakirələr aparılır və müvafiq müalicəvi prosedur təyin olunur.

Gündəlik olaraq bir neçə dəfə şöbədəki xəstələrin vəziyyətinə baxış keçirilir, müvafiq müalicəvi təyinatlar verilməsinə nəzarət olunur. Xüsusi diqqət tələb edən və vəziyyətləri nisbətən ağır olan xəstələr haqqında isə mütəmadi olaraq növbətçi həkimə məlumat verilir.

Onu da qeyd edim ki, şöbənin tibb personalı hərbi qulluqçularla yanaşı, onların ailə üzvlərinin də sağlamlığının keşiyində durur.

Şöbəyə müraciət etmiş xəstələr vəziyyətlərindən asılı olaraq ya ambulator, ya da stasionar müalicəyə qəbul olunurlar. Stasionar müalicə alan xəstələrin xəstəlik tarixlərində baxışın nəticələrinin (xəstənin vəziyyətində irəliləyiş və ya geriləmə müşahidə edilməsi və s.) qeydiyyatı aparılır, xəstə stasionar müalicəni başa çatdırarkən xəstəlik tarixi tibb hissəsinə təhvil verilir.

Leytenant N.Mirzəyeva eyni zamanda şöbə rəisi ilə birlikdə xəstələrin çeşidlənməsində, müvafiq müayinə və müalicə planının hazırlanmasında, personalın ixtisas hazırlığının hər zaman artırılması üçün tədbirlərin həyata keçirilməsində yaxından iştirak edir. Həmçinin palatalarda rejim və sanitar-gigiyena qaydalarına əməl olunmasını diqqətdə saxlayır.

Şöbənin digər hərbi qulluqçuları - baş tibb bacısı gizir Səadət Nəbiyeva, tibb bacısı-massajist kiçik gizir Səbinə Hüseynova, tibb bacıları - baş çavuş Günel Hüseynova, baş çavuş Sədaqət Həsənova, baş çavuş Afət Adıgözəlova, baş çavuş Könül Sadıqova və kiçik çavuş Günel Məmmədova da vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Baş tibb bacısı gizir S.Nəbiyeva tibb bacılarını təlimatlandırır, onların işinə, həmçinin şöbəyə daxil olan sənədlərin vaxtlı-vaxtında icra edilməsinə nəzarət edir.

Tibb bacıları isə xəstələrlə müvafiq prosedurları yerinə yetirir, hər həftənin bazar ertəsi günləri keçirilən tibb bacılarının seminarında müxtəlif mövzularla çıxış edirlər.

Leytenant N.Mirzəyeva sonda hərbi qospitalda yaradılan hərtərəfli şəraitə görə Daxili Qoşunların Komandanına, eləcə də hərbi qospitalın komandanlığına dərin minnətdarlığını ifadə etdi, Daxili Qoşunların sıralarında xidmət etməkdən qürur duyduğunu bildirdi.

Göründüyü kimi, hərbi qospitalın tibb personalı şəxsi heyətin sağlamlığının bərpa edilməsi üçün əllərindən gələni əsirgəmir.

**baş leytenant X.Hacızadə**

3_Layout 1 13.10.2017 16:13 Page 1



ŞƏHİDLƏRİMİZ

# VƏTƏN UĞRUNDA FƏDAKAR ƏSGƏR OLDU...

***Qədim zamanlardan əcdadlarımız Vətən müdafiəçilərinə müraciətlə "bu torpağın suyu və çörəyi sizə halal olsun" deyərək onları alqışlamışlar. Tarix boyu Vətən təhlükədə olanda xalqımızın məhz qeyrətli oğulları sinəsini sipər edərək düşmən qarşısına çıxıblar. Qarabağ müharibəsində də belə oğulların varlığı xalqımıza başucalığı gətirdi və onlar düşmənə heç vaxt yenilməyəcək gücümüzü, döyüş ruhumuzu göstərdilər.***

***Daxili Qoşunların yüzlərlə cəsur hərbi qulluqçusu ön cəbhədə respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onlardan bir qismi ilə birgə döyüş yolu keçmişəm. İllər ötür, zaman bizi o qanlı-qadalı günlərdən daha da uzaqlaşdırır. Ancaq şəhidlərin xatirəsi heç zaman unudulmur.***



ƏSGƏR HƏSƏNOV ZÖHRAB MƏMMƏDXAN OĞLU

Bu yazını şəhid hərbi qulluqçularımızdan biri - əsgər Həsənov Zöhrab Məmmədxan oğlunun əziz xatirəsinə həsr edirəm. Odlu-alovlu səngərlərdə aramızda döyüşçü qardaşlığı yaranmışdı. Bütün müharibəni üstümdə gəzdirdiyim bloknotumda onun qeydləri və çəkdiyi şəkillər yadigar qalıb. Məqaləni hazırlayarkən o qeydləri bir daha oxudum, adi qələmlə çəkilmiş şəkillərə nəzər saldım, çox təsirləndim.

Z.Həsənov 1974-cü il avqustun 20-də Masallı rayonunun Köhnə Alvadı kəndində dünyaya göz açıb. Köhnə Alvadı qədim tarixi köklərə malik kənddir və özünəməxsus adət-ənənələri ilə fərqlənir. İnsanın Vətənə bağlılığı öz doğma el-obasından başlayır. Zöhrab ailədə aldığı tərbiyə və böyüyüb boya-başa çatdığı kəndin müsbət mənəvi mühiti sayəsində vətənpərvər gənc kimi yetişmişdi. O, kənd orta məktəbində 10 il oxuyub. Ancaq sonra təhsilini davam etdirməyib. Öz ədəb-ərkanına, xeyirxahlığına, elin xeyrində-şərində köməyini əsirgəmədiyinə, həmişə böyüklərə sayqı ilə yanaşdığına görə kənd camaatının hörmətini qazanıb.

Zöhrab 1992-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılıb. Beləliklə, o, Daxili Qoşunların o vaxtkı 5478 saylı hərbi hissəsində (hazırda 16075 saylı hərbi hissə) həqiqi hərbi xidmətə başlayıb. Hərbi andı da bu hərbi hissədə qəbul edib.

Həmin ilin mart ayından başlayaraq Daxili Qoşunların hərbi hissələri Dağlıq Qarabağ və ətraf rayonların ərazisində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edirdilər. 5478 saylı hərbi hissədən də ön cəbhəyə müntəzəm olaraq hərbi qulluqçular göndərilirdilər. Belə ağır vəziyyətdə arxa cəbhədə yerləşən hərbi hissələrin şəxsi heyəti döyüşə getməyə can atırdı. Müharibə hərbi qulluqçularımızın döyüş ruhunu daha da artırmışdı.

1993-cü ilin mart ayının 14-dən etibarən Zöhrab ön cəbhədə - 67987 saylı hərbi hissənin tərkibində hərbi xidmətini davam etdirib. Beləliklə, onun gərgin sınaqlarla dolu döyüş yolu başlayıb. İlk döyüş anlarının sarsıntısı nə qədər ağır olsa da, iradəsini toparlamağı bacarıb.

Ağır döyüşlər isə səngimək bilmirdi. Ağdərənin Canyataq və Gülyataq kəndləri, Ağdamın Papravənd, Qalaycılar, Boyəhmədli, Salahlı, İlxıçılar kəndləri və ətraf yüksəkliklər, Füzuli rayonunun Bala Bəhmənli, Böyük Bəhmənli kəndləri və ətraf ərazilər uğrunda döyüşlərdə iştirak edib. Zöhrab o ölümlü-itimli günlərdə hərbi andına sadiq qalıb, komandirlərinə və döyüşçü yoldaşlarına inamını itirməyib. Qeyd etdiyim döyüş yolunun əvvəli və son məqamı istisna olunmaqla, qalan aylarda döyüş mövqelərində bir yerdə olmuşuq. Ön cəbhədə üzləşdiyimiz bütün çətinliklərə dözümlə yanaşırdı. Mənən saflığı, dürüst olması, qayğıkeşliyi onu fərqləndirən əsas cəhətləri idi. Hərdən özünə qapanırdı, belə anlarda kimisə xatırladığını düşünürdüm. Bir dəfə soruşdum ki, kimi tez-tez xatırlayırsan? Yoxsa ailədən bir nigarançılığın var? Bir xeyli susdu, ancaq sonra anasını xatırladığını dedi. Anası o, əsgərliyə getməmişdən bir neçə ay əvvəl vəfat etmişdi. Ümumiyyətlə, Zöhrab söhbətlərimiz zamanı uşaqlıq, yeniyetməlik illərini həmişə xatırlayırdı. Deyirdi ki, kaş müharibə tez qurtarsın, hamımız sağ-salamat evimizə qayıdaq, doğma kəndi üçün çox darıxırdı.

1993-cü ilin dekabr ayında düşmənin hərbi hissəmizin yerləşdiyi mövqelər istiqamətində müdafiə xəttini yarmaq cəhdlərinin qarşısı alınmışdı. Ermənilər Füzuli rayonunun ərazisinin işğalını başa çatdırmağa, Beyləqana doğru irəliləməyə can atırdılar. Hamımız dərk edirdik ki, son nəfəsimizədək mövqelərimizi qorumalıyıq. Qarşıdakı Horadiz əməliyyatına da az vaxt qalırdı.

**1993-cü il dekabrın 12-də** ermənilər tərəfindən zirehli texnika və artilleriya vasitələri ilə bizim postlar şiddətli atəşə tutulub. Həmin gün Böyük Bəhmənli kəndi yaxınlığındakı təpəlik ərazidə Zöhrab minaatan mərmisinin partlayışı nəticəsində ağır yaralanıb. Minaatan mərmisinin qəlpəsi onu başından yaralayıb. Zöhrabı döyüş meydanından çıxaran döyüşçü yoldaşlarından biri Natiq Mirzəyev olub. O, Zöhrabın həmkəndlisidir. Orta məktəbdə də birlikdə oxuyublar. Qismət belə gətirib ki, hərbi xidmətə və eləcə də ön cəbhəyə birgə yola düşüblər. Natiq Zöhrabın döyüş yolunun bütün məqamlarında onun yanında olub. Onun özü 1993-cü il dekabrın 25-də elə həmin ərazidə ağır yaralanıb. Hazırda müharibə əlilidir.

Z.Həsənov öncə Beyləqanın Daşburun qəsəbəsindəki hərbi qospitala yerləşdirilib, sonra isə Bakıdakı Neyrocərrahiyyə Xəstəxanasına çatdırılıb. O, 1993-cü il dekabrın 26-dək koma vəziyyətində olub. Həmin gün isə həkimlərin bütün səylərinə baxmayaraq, Zöhrab dünyasını dəyişib.

Şəhid doğma yurdunda - Köhnə Alvadı qəbiristanlığında dəfn edilib. Həmçinin, kənddə şəhidlər abidəsinə onun şəkli də həkk olunub.



1992-ci il. 5478 saylı hərbi hissə. Əsgər Z.Həsənov 1-ci cərgədə soldan sağa 2-ci.



Zöhrabın atası Məmmədxan Həsənov kəndin hörmətli ağsaqqallarından biridir, din xadimidir. Atası və ailənin digər üzvləri: qardaşlar Mustafa Həsənov, Ədalət Həsənov, Vüsal Həsənov, Mahir Həsənov, bacısı Zəminə Həsənova hər il onun xatirəsinə ehsan verirlər. Doğmaları üçün Zöhrabın yoxluğu nə qədər acılı olsa da, onun şəhidlik zirvəsinə ucalmasından qürur duyurlar.

Onu da qeyd edim ki, şəhidin qardaşı Ədalət Həsənov da erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. Digər qardaşı Vüsal Həsənov isə atəşkəs dövründə hərbi xidmətdə olarkən Ağdam rayonu ərazisində torpaqlarımızın müdafiəsində dayanıb.

Mən şəhidin bəzi ailə üzvləri, habelə kənd ağsaqqalı, "Kəndimiz və sakinləri" kitabının müəllifi Əli Mahmudoğlu ilə telefonla danışdım, qardaşı Mahirlə, döyüşçü yoldaşı və həmkəndlisi Natiq Mirzəyevlə Bakıda görüşdüm, onlardan Zöhrabın həyat yolu barədə xeyli məlumat əldə etdim. Şəhidin ailə üzvlərinə, Natiq Mirzəyevə məqalənin hazırlanmasında göstərdikləri köməkliyə görə minnətdarlığımı bildirirəm.

Novruz Novruzovun müəllifi olduğu "Masallının şəhid oğulları" kitabında şəhidin döyüş yolu barədə məlumatlarda qeyri-dəqiqliyə yol verilib. Kitab 1994-cü ildə çap olunub. Müharibə mövzusunda kitablarda bəzən belə xətalara rast gəlinir.

Zöhrabın döyüşərək canını qurban verdiyi torpaqlarımızın bir qismi işğaldan azad olunub və bu gün orada Azərbaycan bayrağı dalğalanır. Şəhid qanı axan torpağın öz sahibinə qovuşması, yağı tapdağından qurtulması böyük səadətdir!

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏXSİ HEYƏT QOYULAN TAPŞIRIQLARIN İCRASINI MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİR

"Əsgər" qəzetinin hər buraxılışında xidməti-döyüş tapşırıqlarını uğurla icra edən hissə və bölmələr barədə geniş materiallar hazırlayaraq sizlərə təqdim edirik. Bir sıra xidmətlər var ki, onların fəaliyyəti mühüm əhəmiyyət kəsb etsə də, texniki sahə olduğundan o qədər də gözə çarpmır. Sözügedən sahələrdən biri də Daxili Qoşunların Baş İdarəsinin Katibliyinin Mətbəəsidir.




Mətbəə daxil olan sifarişlərə əsasən qeydiyyat jurnallarının, blankların, kitabların, Daxili Qoşunların xidməti fəaliyyətinə aid əmr və göstərişlərin, təlimatların, tədris vəsaitlərinin çapını, o cümlədən çoxaldılmasını həyata keçirir. Hazırlanmış xidməti sənədlərin qeydiyyatı aparıldıqdan sonra müvafiq qaydada qoşunların mərkəzi anbarına təhvil verilir.

Mətbəə rəisi kapitan Tural Qurbanov mətbəənin işinin Daxili Qoşunların Komandanının "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Katibliyinin əsasnaməsi"nin tələbləri əsasında qurulduğunu bildirdi. Onun sözlərinə görə, mətbəədə görülən işlər ilk baxışdan sadə görünsə də, əslində, çox böyük məsuliyyət tələb edir. Sifarişlər əsasında müvafiq tədris vəsaitləri və digər zəruri sənədlər çap olunur, yığılır, kəsilir və cildlənir. Qeyd etdi ki, hazırda Daxili Qoşunların ali tədris ocağı olan Ali Hərbi Məktəbi üçün on dörd adda dərs vəsaitləri hazırlanır. Mətbəə rəisi hazırlanacaq tədris vəsaitlərinin vaxtında, doğru-düzgün yığılmasının olduqca vacib faktor olduğunu vurğuladı. O, bu baxımdan mətbəədə xidmət edən hər bir hərbi qulluqçudan funksional vəzifələrinə daha məsuliyyətlə yanaşmağı, dəzgah və avadanlıqlardan düzgün istifadə etməyi, bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində daima öz üzərilərində çalışmağı tələb etdiyini söylədi. Görülən işlərin icrasına nəzarət edən kapitan T.Qurbanov avadanlıqların, çap qurğularının düzgün istismarını, habelə dəzgahlara vaxtlı-vaxtında texniki qulluğun göstərilməsini diqqət mərkəzində saxlayır. O, dəzgahlarda və çap maşınlarında işləyərkən hərbi qulluqçuların texniki təhlükəsizlik qaydalarına ciddi riayət etməsinin vacibliyini bildirdi. Əlavə etdi ki, şəxsi heyət vəzifələrinin öhdəsindən layiqincə gəlir, qarşıya qoyulan tapşırıqları vaxtında və düzgün yerinə yetirir. Mütəxəssislər tərəfindən daxil olan sənədlərin tərtibatına xüsusilə diqqət yetirilir. Sənədlər nümunələrə uyğun olaraq, ofset təbəqəsinə köçürülür, qrammatik cəhətdən düzgün yığılır və çap olunması təmin edilir. Texniklər tərəfindən isə dəzgahlar daima saz vəziyyətdə saxlanılır, mütəmadi olaraq onlara texniki qulluq göstərilir. Avadanlıqlarda nasaz mexanizmlərin ehtiyat hissələrlə dəyişdirilməsi, eləcə də zəruri təmir işləri barədə mütləq qaydada texniki pasportda müvafiq qeydlər aparılır.

Bir sözlə, mətbəənin şəxsi heyəti qəbul olunmuş sifarişlərin icrasını müvəffəqiyyətlə həyata keçirir.

Mətbəə rəisi görülən işlərdə yorulmadan çalışan mütəxəssislər - gizir Niyazi Qurbanovun, gizir Günel Qurbanovanın, kiçik gizir Nigar Bayramlının, texniklər - kiçik gizir İranə Mütəllibzadənin, baş çavuş Pərviz Əliyevin, baş çavuş Cəbrayıl Quliyevin və məsul icraçı baş çavuş Ağaəli Əliyevin əməyini yüksək qiymətləndirdi.

**baş leytenant T.Əlizadə**





4_Layout 1 13.10.2017 16:06 Page 1



# VETERANLAR 25032 və 12318 SAYLI HƏRBİ HİSSƏLƏRİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞÜBLƏR

***Daxili Qoşunların Veteranlar Şurası yarandığı vaxtdan bu günədək şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsində yaxından və fəal iştirak edir. Veteranlarımız zəngin həyat, xidmət və döyüş təcrübəsinə malik şəxslər kimi hərbi qulluqçularımızın mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə layiqli töhfə verirlər. Hər dəfə veteranlarımızla keçirilən maraqlı görüşlər şəxsi heyəti Daxili Qoşunların formalaşma tarixi, şərəfli döyüş yolu haqqında dolğun məlumatlandırmaqla yanaşı, onların müsbət hərbi ənənələr ruhunda tərbiyə olunmasında da mühüm rol oynayır.***



Oktyabrın 1-də Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, Veteranlar Şurası sədrinin müavini Telman Aslanov, veteran Çingiz Daşdəmirov və Veteranlar Şurasının katibi olaraq mən 25032 və 12318 saylı hərbi hissələrin şəxsi heyəti ilə görüşdük. Bu səfərimiz Veteranlar Şurasının iş planında nəzərdə tutulmuşdu. Belə ki, təşkilatın fəaliyyətində bölgələrdə yerləşən hərbi hissələrə də xüsusi diqqət yetirilir. Veteranlar Şurasının ictimai vəzifələrinin icrasının bütün hərbi hissələrimizi əhatə etməsi vacibdir və bu yönümdə ardıcıl tədbirlər həyata keçirilir.

25032 saylı hərbi hissə bu ilin iyun ayında yeni hərbi şəhərciyə köçüb. Yenidən qurulan və abadlaşdırılan hərbi şəhərciyin açılışında Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı tarixi hadisədir. Bununla da hərbi hissənin həyatında yeni mərhələ başlayıb. Hərbi hissədəki yeniliklər, burada kiçik komandirlər və mütəxəssislərin hazırlanması prosesi ilə tanış olmağı qərarlaşdırmışdıq. 25032 saylı hərbi hissədə bizi hərbi hissə komandiri polkovnik-leytenant İlkin Gözəlov və komandirin müavinləri qarşıladılar. Hərbi hissənin ərazisi ilə tanış olduq. Həqiqətən də böyük quruculuq işləri görülüb. Burada əvvəlki illərdə mövcud olmuş şəraitlə indi gördüklərimizi heç müqayisə etmək mümkün deyil. Müasir standartlara cavab verən, lazımi maddi-texniki bazaya malik hərbi şəhərciyin yaradılması ali dövlət qayğısının təzahürüdür. Hər yerdə səliqə-sahman, göz oxşayan yaşıllıq xoş təəssürat yaradır. Hərbi hissədə qərargah, bölmələr, tədris otaqları, təlim sahələri, təminat obyektlərinin tərtibatı da diqqəti cəlb edir. Kiçik komandirlər və mütəxəssislərin hazırlanması prosesi barədə ətraflı məlumat aldıq. Bu sahədə hərbi hissənin sanballı təcrübəsi var. Yaradılan şərait mövcud təcrübədən də bəhrələnməklə, hərbi hissənin bu əsas vəzifəsinin daha da uğurla yerinə yetirilməsi və təkmilləşdirilməsi imkanlarını artırır.

Hərbi hissənin şəxsi heyəti ilə görüş keçirildi. Polkovnik-leytenant İ.Gözəlov tədbiri açaraq bizi şəxsi heyətə təqdim etdi və veteranlarla görüşün tərbiyəvi əhəmiyyətini vurğuladı. O, bildirdi ki, Daxili Qoşunların sıralarında uzun illər xidmət etmiş, çətin sınaqlardan keçmiş, dəyərli bilik və təcrübə toplamış veteranların tövsiyə və nəsihətlərini dinləmək hər bir hərbi qulluqçu üçün vacib və gərəklidir. Komandir nəzərə çatdırdı ki, hərbi hissənin şəxsi heyəti müsbət əhval-ruhiyyə ilə xidmət edir, qarşıya qoyulan tapşırıqları əzmlə yerinə yetirir və veteranlarla görüş onların ruh yüksəkliyini daha da artıracaqdır.



Veteranlar Şurasının sədri M.Mürsəlov tədbirdə çıxış edərək şəxsi heyəti veteranlar adından salamladı. O, qeyd etdi ki, bu il martın 12-də yaranmasının 25-ci ildönümü tamam olmuş Daxili Qoşunlar tarixi bir yol keçib. Respublikamızın ərazi bütövlüyü və suverenliyi, dövlətçiliyimiz uğrunda hərbi qulluqçularımızın göstərdikləri şücaət nümunələri haqlı iftixar hissi doğurur. Nəzərə çatdırıldı ki, Daxili Qoşunlar bu günədək hər bir sınaq qarşısında dövlətimizin inam və etimadını doğruldub.

Milli Lider Heydər Əliyevin Daxili Qoşunların xidməti-döyüş fəaliyyətini yüksək qiymətləndirdiyini xatırladan M.Mürsəlov bildirdi ki, Daxili Qoşunların formalaşması və inkişafı böyük öndərin adı ilə bağlıdır. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara diqqət və qayğısını da xüsusi vurğulayan Veteranlar Şurasının sədri bu amilin şəxsi heyəti daha da əzmlə xidmət etməyə ruhlandırdığını dedi.

O, bu gün Daxili Qoşunların bütün hərbi hissələrində yüksək səviyyəli xidmət şəraitinin yaradıldığını söyləyərək, şəxsi heyətin döyüş hazırlığı və nizam-intizamının qorunub saxlanması yönündə görülən işləri də müsbət xarakterizə etdi.

M.Mürsəlov bu hərbi hissədə hazırlanan kiçik komandirlər və mütəxəssislərin xidməti fəaliyyətdə xüsusi rolu haqqında fikirlərini bildirdi və müvafiq tövsiyələrini çatdırdı.

Veteranlar Şurasının gördüyü işlər barədə də tədbir iştirakçılarına məlumat verən sədr təşkilatla hərbi hissələrin əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini qeyd etdi. Veteranlarımızın Daxili Qoşunların hər bir uğurundan fərəhləndiyini və bunu təbliğ etdiyini bildirdi, şəxsi heyətə hərbi xidmətlərində uğurlar arzuladı.

Tədbirdə Veteranlar Şurası sədrinin müavini T.Aslanov, veteran Ç.Daşdəmirov və mən də çıxış etdik, şəxsi heyətə Daxili Qoşunların keçdiyi şərəfli yol barədə fikirlərimizi çatdırdıq. Həmçinin hərbi xidmətlə bağlı öz təcrübəmizdən irəli gələn məqamlardan danışdıq və tövsiyələrimizi bildirdik.

Hərbi hissə komandiri görüşə yekun vuraraq, belə tədbirlərin davamlı olaraq keçirilməsini dəstəklədiyini dedi. O, hərbi hissənin şəxsi heyətinin salamlarını bütün veteranlara çatdırmağı xahiş etdi.

Son olaraq hərbi hissə komandanlığı ilə söhbət zamanı hərbi hissənin həyatı, yerli icra qurumları, hüquq-mühafizə orqanları, ictimaiyyətlə əlaqələri, dislokasiya ərazisində yaşayan veteranlarla təmaslar yönündə görülən işlər barədə geniş fikir mübadiləsi aparıldı.

Həmin gün 12318 saylı hərbi hissəyə də baş çəkdik. Bu hərbi hissədə indiyədək keçirilən müxtəlif əlamətdar tədbirlərdə veteranlarımız fəal iştirak ediblər. Hərbi hissə



komandiri polkovnik Etibar İlyasovla qərargah binasının önündə görüşdük. O, həmişə olduğu kimi, veteranları xoş əhval-ruhiyyə ilə qarşıladı. Özü də veteran olan, müharibə sınaqlarını yaşamış, zəngin xidmət təcrübəsinə malik polkovnik E.İlyasov demək olar ki, qoşunların əksər veteranlarını şəxsən tanıyır. Komandir bizi hərbi hissənin ərazisi ilə tanış etdi. Qeyd edim ki, elə ilk nəzərdən hərbi hissədəki səliqə-sahman, abadlıq diqqəti cəlb edir.

Şəhidlər abidəsini ziyarət etdik, Vətən yolunda canını qurban vermiş hərbi qulluqçularımızın xatirəsi anıldı. Qeyd edim ki, bu hərbi hissədə əvvəlki illərdə də şəhidlərin xatirəsinə abidə yaradılmışdı. Ancaq hazırkı abidə həm tərtibatına, həm də quruluşuna, eləcə də yerləşdiyi yerinə görə daha uğurlu alınıb və görülən bu iş təqdirəlayiqdir.

Hərbi hissənin şəraitini əvvəlki dövrlə müqayisə etsək, bu gün bura tanınmaz dərəcədə dəyişib. Aparılmış quruculuq işləri nəticəsində yeni kazarma, yataqxana binaları istifadəyə verilib, ərazidəki binalar və müxtəlif təyinatlı məişət obyektlərində, təlim sahələri və xidmətaparma yerlərində təmir-yenilənmə işləri görülüb, şəxsi heyət üçün istirahət guşəsi yaradılıb. Səhra təlim məntəqəsində gördüklərimiz isə bizi heyrətləndirdi. Burada şəxsi heyətin praktiki təlimləri üçün hər bir şərait var. Həmçinin məişət məsələləri də öz həllini tapıb. Ərazinin tərtibatına da ciddi fikir verilib. Çöl şəraitində yaradılmış istirahət guşəsi isə maraqlı bir nümunədir.

Hərbi hissənin şəxsi heyəti ilə görüş keçirildi. Polkovnik Etibar İlyasov görüşü açaraq veteranları bir daha salamladı. O, qeyd etdi ki, Daxili Qoşunların veteranları hörmət və ehtirama layiqdirlər, onların hərbi xidmətdə keçdiyi yol bugünkü şəxsi heyətə örnəkdir. Komandir hərbi xidmətdə müsbət ənənələrin davam etdirilməsinin vacibliyini vurğulayaraq, hərbi hissədə Daxili Qoşunların döyüş yolunun və ictimai təhlükəsizliyin təmin olunmasında hərbi qulluqçularımızın əldə etdiyi nailiyyətlərin öyrənilməsinə xüsusi diqqət yetirildiyini nəzərə çatdırdı.

Hərbi hissənin dislokasiya yerində yerinə yetirdiyi tapşırıqları xatırladan polkovnik E.İlyasov şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi yönündə görülən tədbirlərdən danışdı, hərbi kollektivin birliyinin möhkəmləndirilməsinin önəmli amil olduğunu bildirdi.

Sonra Veteranlar Şurasının sədri M.Mürsəlova söz verildi. O, şəxsi heyəti veteranlar adından salamlayaraq, belə görüşlərin onların hərbi-vətənpərvərlik tərbiyəsi işinə özünəməxsus töhfə verdiyini qeyd etdi. Nəzərə çatdırdı ki, veteranlar Daxili Qoşunların bütün hərbi hissələrində olurlar. Hər belə səfər zamanı hərbi hissələrimizin hərtərəfli inkişaf etdiyinin şahidi oluruq. Bu baxımdan 12318 saylı hərbi hissə də istisna deyil və burada veteranların gördükləri müsbət dəyişikliklər xoş təəssürat yaradır. M.Mürsəlov xüsusi vurğuladı ki, Daxili Qoşunların hərbi qulluqçuları həmişə mətin və vətənpərvər olublar, bu gün də Vətənə, dövlətçiliyə sədaqətlə xidmət edirlər.

O bildirdi ki, hər bir ölkənin güclü olması və inamlı inkişafı daxili sabitliyə bağlıdır. Bu gün Daxili Qoşunlar polis orqanları ilə birgə ölkəmizdə ictimai təhlükəsizliyin qorunması üzrə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Hər bir hərbi qulluqçumuz Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Daxili Qoşunlara etimadını doğrultmaq əzmi ilə xidmət etməlidir.

Veteranlar Şurasının sədri şəxsi heyətə hərbi xidmət təcrübəsindən irəli gələn məqamlar barədə danışdı, hərbi kollektivlərdə nizam-intizama riayət olunmasının, hərbi xidmət borcunun şüurlu şəkildə qavranılmasının, təlim prosesində əzmkarlığın vacibliyini vurğuladı. O, şəxsi heyətə nümunəvi xidmətlə bağlı tövsiyələrini çatdıraraq, onları Daxili Qoşunların nüfuzunu həmişə uca tutmağa çağırdı.

Sonra veteranlara hərbi hissəyə bu səfərdən xatirə olaraq suvenir hədiyyələr təqdim olundu. Veteranlar ad günü olan əsgər Zaur Əliyevi təbrik etdilər.

Hərbi hissə komandiri polkovnik E.İlyasov görüşə yekun vuraraq, şəxsi heyətə ruh yüksəkliyi aşıladıqlarına və dəyərli tövsiyələr verdiklərinə görə veteranlara minnətdarlığını bildirdi.

Sonda hərbi hissənin şəxsi heyəti ilə xatirə şəkli çəkdirdik.

**Yalçın Abbasov**

# BAXIŞ MÜSABİQƏSİNİN NƏTİCƏLƏRİ MƏLUM OLUB

***Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən sentyabr ayının 1-dən 30-dək Daxili Qoşunların Ali Hərbi Məktəbi və hərbi hissələr arasında maddi-texniki tədris bazasına və kütləvi idman işinə baxış müsabiqəsi keçirilib.***

Müsabiqənin keçirilməsi zamanı hərbi qulluqçuların bilik və peşəkar bacarıqlarının artırılması məqsədilə hazırlanmış maddi-texniki tədris bazasının vəziyyəti, onların təkmilləşdirilməsi, eləcə də hərbi hissələrdə fiziki hazırlıq işinin vəziyyəti yoxlanılaraq, hərbi qulluqçuların hərbi-idman kompleksinin normativlərinin yerinə yetirilməsinə cəlb olunması təmin edilib.

Baxış müsabiqəsi zamanı müəyyən edilib ki, qoşunların 17074, 12318, 17072, 16077, 99713 və 25033 saylı hərbi hissələrində maddi-texniki tədris bazasının yaradılması və təkmilləşdirilməsi üzrə bir çox işlər görülüb, döyüş təlimi fənləri üzrə siniflər, müxtəlif təlim şəhərcikləri hazırlanıb.

Bununla yanaşı, 17072, 25033, 17074 və 16073 saylı hərbi hissələrdə kütləvi idman işləri üzrə tədbirlər daha mütəşəkkil təşkil olunub. Fiziki hazırlıq üzrə bölmələr arasında müvafiq normativlərin yerinə yetirilməsi zamanı qeyd olunan hərbi hissələrin xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi dəstələrinin şəxsi heyəti fərqlənib.

İl ərzində Daxili Qoşunların birinciliyi uğrunda idmanın müxtəlif növləri üzrə keçirilən yarışlarda 99713, 16075, 67987, 17072 və 25033 saylı hərbi hissələrin yığma komandaları tam məsuliyyət hissi ilə hazırlaşdıqlarına görə daha fəal iştirak edərək, yüksək nəticələr qazanıblar.

Hərbi hissələrdə keçirilən maddi-texniki tədris bazasına və kütləvi idman işinə baxış müsabiqəsinin nəticələrinə görə yerlər aşağıdakı kimi təyin olunub:




**Maddi-texniki tədris bazasına baxış üzrə:**

I yer - 12318 saylı hərbi hissə
II yer - 17074 saylı hərbi hissə
III yer - 17072 saylı hərbi hissə

XII yer - 17071 saylı hərbi hissə
XIII yer - 16076 saylı hərbi hissə
XIV yer - 25031 saylı hərbi hissə



**Kütləvi-idman işinə baxış üzrə:**

I yer - 17072 saylı hərbi hissə
II yer - 25033 saylı hərbi hissə
III yer - 17074 saylı hərbi hissə

XIV yer - 25032 saylı hərbi hissə
XV yer - 17077 saylı hərbi hissə
XVI yer - 64412 saylı hərbi hissə.

**Mətbuat xidməti**

## Allah rəhmət eləsin

25032 saylı hərbi hissənin şəxsi heyəti gizir Vasif Babayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
**Redaktor: X.Hacızadə**

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000